# “Akgün Yazılım” səhiyyədə həlledici proqramlarını qürurla nümayiş etdirdi



## *Azərbaycanlı nümayəndə heyəti “Akgün Yazılım”ın proqram həllərinin Türkiyə xəstəxanalarında necə tətbiq olunduğunu böyük maraqla incələdi*

“Akgün Yazılım” şirkətinin təşəbbüsü və təşkilatçılığı ilə ölkənin səhiyyə və rabitə dünyasından bir qrup səlahiyyətli şəxsdən ibarət heyət şirkət məhsullarının Türkiyənin qabaqcıl xəstəxanalarında necə tətbiq olunduğunu yerində müşahidə etdilər.



Sentyabrın 19-dan 25-nə qədər davam edən səfər proqramında Azərbaycan Respublikası Rabitə və İnformasiya Nazirliyinin Məlumat Hesablama Mərkəzinin direktoru Nail Mərdanov, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin rabitə və informasiya məsələləri üzrə direktor müavini Cəbrayıl Əsədzadə, Bakı Şəhər Kliniki Tibbi Mərkəzin baş həkimi, tibb elmləri doktoru, professor Azər Kərimov, baş həkimin müavini Aydın Əlizadə və “Akgün Yazılım” şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Kənan Sağlıklı iştirak edirdilər.

Səfər proqramının birinci günündə nümayəndə heyəti Trabzon Doğuş və Uşaq Baxımevi xəstəxanasına baş çəkdi. Xəstəxananın baş həkimi İsmayıl Topal qonaqlara tibbi məlumatların idarəolunması sisteminin necə işləməsi və konkret hansı sahələrdə müəssisənin fəaliyyətini asanlaşdırdığı haqqında ətraflı məlumat verdi. Səfərin ikinci günündə isə Trabzon Ürək Xəstəlikləri Xəstəxanası və Nümunə Elmi-Tədqiqat Xəstəxanasında olan heyət “Akgün Yazılım” şirkəti tərəfindən hazırlanmış proqramların istifadə metodları və tətbiqi nümunələri ilə tanış oldular. Burada Trabzon Ürək Xəstəlikləri Xəstəxanasının direktoru İlyas Alp, baş həkimi Halit Çınarka, habelə Nümunə Elmi-Tədqiqat Xəstəxanasının baş həkimi Ekrem Akgül və baş həkimin müavini Celal Uzun səhiyyədə informasiyanın idarəetməsinin kompyuter texnologiyası və “Akgün Yazılım” şirkətinin məhsulları ilə yüksək səviyyədə təşkil olunduğunu vurğuladılar. Hər üç tibb müəssisəsində qonaqlar konkret olaraq xəstələrin qeydiyyatının aparılması, arxivləşdirilməsi, laboratoriya modulları, habelə KİOSK sistemi, aptek modulu və s. digər xidmətlərin tətbiqi ilə yerində tanış oldular.

Nümayəndə heyətinin üzvləri Türkiyənin qabaqcıl tibb müəssisələrində və yalnız “Akgün Yazılım” şirkəti tərəfindən tətbiq olunan proqramların istifadəsi ilə Azərbaycanın da tibb sahəsində böyük dönüş yaranacağına inandıqlarını qeyd etdilər.

Şirkətin baş direktoru Temel Akgün, Azərbaycanlı nümayəndə heyətinə şirkətin yaranma tarixi və xidmətləri haqqında məlumat verərək dost və qardaş ölkə Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində və xüsusilə bu texnologiyaların səhiyyədə tətbiqinin inkişaf etdirilməsi istiqamətində öz töhfələrini verməkdən qürur duyacaqlarını bildirdi.

Xatırladaq ki, 1986-cı ildə Türkiyənin Trabzon şəhərində kompyuter proqramlaşdırma təlimi ilə sektorda öz yerini tutmağa başlayan “Akgün Yazılım” şirkəti çoxillik iş təcrübəsini texnoloji yeniliklərlə birləşdirərək yeni və daha professional şəkildə fəaliyyətini davam etdirir. Bütün dövrlərin tələblərinə cavab verən şirkət, novator ruhu ilə yoluna davam edərək qrafika dəstəkli platformalarda işləyən yeni proqram təminatlarını istifadəçilərinə təqdim edir. “Akgün Yazılım” şirkətinin Azərbaycan nümayəndəliyi bu ilin aprel ayında təntənəli açılış mərasimi ilə fəaliyyətə başlayıb.

# Xaricdə təhsil alanlar vətəndə işləyə bilərmi?

*Ü.FƏRZƏLİYEVA*

***Qəzetimizin ötən saylarından birində «Öyrənməyə qərb ölkəsi, işləməyə vətən yaxşı» başlıqlı yazıda azərbaycanlı tələbələrə müxtəlif xarici ölkələrdə təhsil almaları üçün yaradılan imkanlar haqqında danışmışdıq. Gənclərimizin inkişaf etmiş ölkələrin tibb təcrübəsindən yararlanmasının səhiyyəmizin gələcək inkişafına öz töhfəsini verə biləcəyini, istedadlı tələbələrə elmi və təcrübi biliklərini artırmaları üçün şərait yaradılmasının çox vacib olduğunu vurğulamağa çalışmışdıq. Həmçinin ölkəmizdə bu istiqamətdə görülən işlər barədə məlumat vermişdik. Maraqlıdır, görəsən, xarici ölkələrdə təhsil alıb qayıdan tələbələrə vətənimizdə fəaliyyət göstərmələri, qazandıqları elmi-təcrübi biliyi tətbiq edə bilmələri üçün hansı şərait yaradılır? Ümumiyyətlə, Səhiyyə Nazirliyi bu istiqamətdə tədbirlər həyata keçirirmi? Bu və digər suallarımıza aydınlıq gətirmək üçün Səhiyyə Nazirliyi Kadrlar, elm və təhsil şöbəsinin aparıcı məsləhətçisi Naibə Əzizova ilə həmsöhbət olduq.***

## *Səhiyyə naziri «Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması barədə» əmr imzalayıb*

«İlk növbədə qeyd edim ki, avqustun 28-də səhiyyə naziri Oqtay Şirəliyev «Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması barədə» əmr imzalayıb. Əmrdə xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üzrə Komissiya yaradılması və komissiyanın tərkibinin təsdiq edilməsi nəzərdə tutulub. Həmçinin əmrə əsasən, «Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üzrə Komissiya haqqında Əsasnamə» və onların «Tibbi və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması barədə şəhadətnamə»nin nümunəsi təsdiq edilib». N.Əzizova Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2001-ci il tarixli 176 nömrəli «Əcnəbilərin və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin özəl tibbi praktika ilə məşğul olması üçün Şərtlərin təsdiq edilməsi haqqında» qərarının da əmrdə nəzərə alındığını dedi. Qeyd etdi ki, xarici ölkələrdə tibb təhsili almış əcnəbilər və ölkəmizdə daimi yaşayan, vətəndaşlığı olmayan şəxslər bu əmrlə yaradılmış komissiya tərəfindən verilən şəhadətnamə əsasında özəl tibbi praktika ilə məşğul ola bilərlər.

N.Əzizova komissiyanın nə vaxt yaradılacağı və fəaliyyəti ilə bağlı sualımızı cavablandıraraq bildirdi ki, komissiya Səhiyyə Nazirliyinin nəzdində Nazirlər Kabinetinin 12 yanvar 1999-cu il tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmiş «Xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin Azərbaycan Respublikasında tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması Qaydası»na müvafiq olaraq yaradılıb:

*(Ardı səhifə 9-da)*

BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - AZ 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com